# Görünən odur ki, İran üçün müqəddəs heç nə yoxdur

**İllər idi ki, İrandan, xüsusilə İranın dini lideri Xameneyiyə tabe olan İslam İnqilab Keşikçiləri Korpusundan, SEPAH-dan təhdidlər eşitməkdəydik.**

Dünyanın bir sıra dövlətlərinin terrorçu təşkilat kimi tanıdığı, qanlı terror hadisələrinin müəllifi olan SEPAH gah neft mədənlərimizi vuracağı, gah da "Arazı keçəcəyi" ilə dövlətimizə qarşı hədyanlar səsləndirməkdə idi. Xüsusilə Azərbaycanın Ermənistan üzərində qazandığı qətiyyətli qələbədən sonra İran dövləti açıq şəkildə terrorçu Ermənistanı dəstəkləməklə, düşmən ölkəni silahlandırıb müharibəyə təhrik etməklə Azərbaycana olan qərəzli münasibətini açıq şəkildə nümayiş etdirməyə başladı. Görünən budur ki, İran üçün müqəddəs heç nə yoxdur.

İlk növbədə, İran dövləti dindən siyasi məqsədlər üçün istifadə etməklə müqəddəs dinimizə xəyanət edir, onu gözdən salır. Müqəddəs islam dinini məzhəblərə bölərək dini təriqətçilik salır. Din pərdəsi altında maskalanaraq insanları qorxu altında saxlayır. Nəinki insan haqlarına, beynəlxalq hüquqa da hörmət qoymur, onunla hesablaşmır. Sosial problemlərin aradan qaldırılmasını, yaşayış tərzinin yaxşılaşdırılmasını, adi insani hüquqlarını tələb edən insanları məhkəməsiz edam edir... Ən başlıcası isə, özünü dünyada dinin, islamın "vəkili" hesab edən İran din qardaşlarını qırmaqdan, onlarla müharibə etməkdən çəkinmir. Tarixə nəzər salsaq, görərik ki, İranda islam inqilabı baş verdikdən az sonra qonşu müsəlman ölkəsi İraqla çoxillik müharibə baş verdi. Minlərlə insan "islamçıların" hikkəsinin qurbanı oldu. Ermənistanla 30 illik münaqişə dövründə İran açıq şəkildə Ermənistanı dəstəkləyib silahlandırdı. Ermənistanın ən yaxın dostu, müttəfiqi olduğunu gizlətmədi.

SEPAH-ın Yəməndə, Suriyada, Səudiyyə Ərəbistanında, Bəhreyndə törətdiyi qanlı qırğınları, terror aktlarını bilməyən az adam tapılar. Fikir versək, görərik ki, "islamın vəkili" olan molla rejimi yalnız müsəlmanlarla vuruşur, müsəlmanların qanını tökür.

Yanvarın 27-də İran Tehranda Azərbaycan səfirliyində terror aktı törətməklə ölkəmizin suveren ərazisinə gözgörəsi təcavüz etmiş oldu. Terror hadisəsinin ideya müəllifi, onu həyata keçirən terrorçu Yasin Hüseynzadə də SEPAH-a bağlıdır. Gəlin hadisənin baş verdiyi ana və ondan sonrakı prosesə diqqət yetirək. Terror hadisəsi baş verdikdən cəmi bir neçə dəqiqə sonra Tehranın polis rəisi Sərdar Hüseyn Rəhimi kamera önünə çıxaraq hadisənin ailə-məişət zəminində baş verməsi barədə dezinformasiya yayır. Dərhal da İranın televiziya kanalları Yasin Hüseynzadədən rahat şəkildə müsahibələr alıb yayımlayır. SEPAH yetgilisi Yasin isə əvvəlcədən düşünülmüş və hazırlanmış "dərsini" əzbərdən söyləyir. Birincisi, İrandakı "demokratik" mühit hamıya yaxşı bəllidir. Nə yaxşı başqa bir dövlətin suveren ərazisinə soxulub, terror törədib, dünyanın gündəminə çevrilmiş bu adama bu imkan yaradılır? Təbii ki, hadisənin mahiyyətini təhrif etmək üçün. Terrorçu da dəqiqliklə seçilib. Həyat yoldaşı azərbaycanlı olan biri.

Beynəlxalq hüquqda səfirliklərin əraziləri onların fəaliyyət göstərdikləri ölkələr tərəfindən qorunur. Amma İranın nümayişkaranə surətdə səfirliyimizi qorumadığı faktı ortadadır. Səfirliyin müşahidə kamerasından götürülən videomateriallardan göründüyü kimi, səfirliyin mühafizəsinə məsul olan İran polisi terrorçunun səfirliyə girməsi üçün heç bir təşəbbüs göstərmir. Çox sakit tərzdə hadisənin gedişini izləyir. Deməli, səfirliyin qapısında durub kəşfiyyat məlumatı toplayan polis də inqilab keşikçilərinin əsgəridir. Əvvəlcədən necə davranacağı haqda tapşırıq alıb.

Başqa bir məqam: terrorçu ilk olaraq səfirliyin mühafizə xidmətinin yerləşdiyi otağa hücum çəkir, xidmətin rəisi baş leytenant Orxan Əsgərovu qətlə yetirir. Gəlin elə bu məqamın üstündə dayanaq. Niyə terror aktı mühafizə işçilərinin yerləşdiyi otaqdan başlayır? İş dəqiqliklə əvvəlcədən ölçülüb-biçilib. İki silahla silahlanmış, "arvadını səfirlikdə axtaran" Yasin Hüseynzadənin məqsədi səfirliyin binasına girib müşahidə kamerasının mənbəyindən, kompüterlərdən müşahidə kamerasının çəkdiyi videoları götürüb bütün səfirlik əməkdaşlarını məhv etmək və iz qoymadan hadisə yerindən qaçmaq idi. İranda kifayət qədər erməninin yaşadığını da gözəl bilirik. Əgər cinayətkar yaxalanmasaydı, səfirliyin əməkdaşı Vasif Tağıyev planı pozmasaydı, İran dövləti səfirlikdə terror aktını törədən "erməni"ni illər boyu axtaracaqdı. Hələ bəlkə də ASALA çaşqınlıq yaratmaq üçün dünya birliyinin diqqətini daha çox "blokadada qalmış" Xankəndiyə çəkmək üçün terroru öz üzərinə götürəcəkdi.

Məsələ ondadır ki, Holokost Qurbanlarının Beynəlxalq Anım Günündə Qüdsdə də yəhudilərin kompakt yaşadıqları Ar Nof rayonunda, sinaqoqda da həmin gün terror törədildi. Heç şübhəsiz ki, SEPAH bir gündə iki düşməninə - Azərbaycana və İsrailə gözdağı vermək niyyətinə düşüb.

Azərbaycanın səfirliyində törədilmiş terror aktı bu günə kimi İranın apardığı anti-Azərbaycan təbliğatının və fəaliyyətinin məntiqi nəticəsidir. Hadisə qətiyyən məişət zəminində baş verməyib. Xüsusi xidmət orqanları tərəfindən peşəkarcasına planlaşdırılmış terror aktıdır. Törədilən terror aktı uzun illər erməniləri kəşfiyyat materialları ilə təmin edən, 44 günlük Vətən müharibəsi zamanı əsgərlərimizin dislokasiya olduğu yerlər barədə Ermənistan xüsusi xidmət orqanlarını məlumatlandıran, əli Azərbaycan əsgərlərinin qanına bulaşmış İran xüsusi xidmət orqanlarının indiyə kimi etdikləri mənəvi terrorun məntiqi davamıdır.

Eyni zamanda hadisələrin gedişi, rəsmi İranın törədilən terror aktına bəsit münasibəti göstərir ki, İranda hər hansı bir dövləti təmsil edən diplomatik nümayəndəliyin təhlükəsizliyinə təminat yoxdur. Din düşməni deyib və yaxud arvadı evindən qaçmış istənilən adam əlinə "Kalaşnikov" avtomatı alıb itkin düşmüş həyat yoldaşını səfirliklərin binasında axtara bilər.

Təəccüblüsü budur ki, İranda bir dövlətin diplomatik toxunulmazlığına qəsd olur, terror törədilir, dünyanın böyük dövlətləri terror aktını lənətləyir, BMT nümayəndəsi məsələyə münasibət bildirir, təəssüf edir, İranda məsələyə Xarici İşlər Nazirliyi səviyyəsində bəsit şərh verilir. Törədilən qanlı terrora görə İran Prezidenti, xüsusilə İranın ali dini rəhbəri Xameneyi Azərbaycan xalqından üzr istəməlidir.

İranın dini rəhbərliyi başa düşməlidir ki, səfirliyimizə atılan güllə həm də İranda yaşayan soydaşlarımıza atılan güllədir. Onların hissiyyatına, mənliyinə tuşlanan güllədir.

"Azad İran" teleqram kanalının yaydığı məlumata görə, İranın Zahedan şəhərində İrandakı despotizmdən bezmiş acınacaqlı vəziyyətdə olan əhali genişmiqyaslı nümayiş keçirərək "Süfrələrimiz boşdur, Xameneyi canidir! Ölüm olsun Xameneyiyə!" kimi şüarlar səsləndiriblər. Dünən Təbriz əhalisi gününü küçələrdə keçirib, səfirliyimizdə törədilən qanlı olayı lənətləyiblər.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

azerbaijan-news.az

Azərbaycan.- 2023.- 29 yanvar.- S. 6.